S.E.TAĞIYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: s.tagiyeva10gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.078

DÜZƏLTMƏ SÖZLƏRİN YARANMASINDA KONVERSİYANIN ROLU

Xülasə. *Məqalə söz yaradıcılığının formalaşmasında konversiyanın rolundan bəhs edir. Aydındır ki, əsasən feillər isimə, isimlərsə feillərə konversiya edə bilərlər. Araşdırmalardan aydın olur ki, yalnız feillər və isimlər deyil, başqa nitq hissələri də (sifət və feillər və s) isimə və feilə konversiya edə bilərlər. Bu yolla sözlərin yaranması ingilis dilinin söz yaradıcılığını lüğət tərkibini zənginləşdirir.*

Açar sözlər: *sözdüzəltmə, konversiya, çoxmənalılıq, substantivləşmə, semantik quruluş, fleksiya, affiksasiya*

Müasir ingilis dilində yeni sözlərin yaradılması üçün istifadə olunan digər sözdüzəldici üsul konversiyadır.

Sözyaradıcılığının obyekti düzəltmə sözləri tədqiq etməkdən ibarətdir və onun əsas vəzifəsi yeni söz mənaları və çalarları yaratmaqdır. Bu isə bir başa semantika ilə əlaqədardır. Hər bir yeni yaranmış söz morfoloji-semantik və genetik analizlərdən keçir. Yeni yaranmış sözlərə semantik və struktur məna baxımından yanaşmaq lazımdır. Sözyaradıcılığında forma və məna məfhumlarına vahid şəkildə yanaşma son dərəcə diqqət mərkəzində olan məsələdir.

İngilis dilinin sözyaradıcılığını təşkil edən, bütün qayda və qanunlar hər şeydən əvvəl ingilis dilinin sözdüzəltmə prinsiplərinə əsaslanır və daha doğrusu, onun yaranmasını quruluş xüsusiyyətlərini özündə əks etdirir. Aydındır ki, hər hansı bir dilin təbiəti, onun quruluş xüsusiyyətləri hər şeydən əvvəl, həmin dilin qrammatikasında öz əksini tapır. Demək olar ki, dilin qrammatik quruluşu xaricində sözyaradıcılığı prosesinin heç bir ünsürü əmələ gəlmir. Daha doğrusu dilin sözyaradıcılığı prosesi o dilin qrammatik quruluşu əsasında inkişaf edir [4, s. 15].

Sözün bir nitq hissəsindən digər nitq hissəsinə keçməsini səciyyələndirən formal əlamətlər olmadan bir nitq hissəsindən digər nitq hissəsinin yaranmasında sözdüzəldici element kimi sözün özünün çıxış etməsi mümkündür. Bir nitq hissəsindən digər nitq hissəsinin bu yolla yaranması konversiya adlanır.

Tarixi inkişaf və qrammatik formaların dəyişməsi, sayəsində ingilis dilində xeyli miqdarda sözdüzəldici forma meydana gəlmişdi. Dildəki infleksiyaların (şəkilçilərin) yox olması sayəsində ingilis dilində sözlərin əksəriyyətinin hansı nitq hissəsinə aid olmasını göstərən xüsusi bir forma yox idi. İngilis dilində infleksiyanın yox olması zamanı feili isimdən fərqləndirmək üçün heç bir əlamət yox idi. Məsələn: to work – work, to drive – drive, to water – water, to love – love, to programme – programme, to plan – plan, roof – to roof, statch – to statch və s.

Konversiya nəinki qrammatik qaydaların formalaşmasında, hətta ingilis dilinin söz yaradıcılığında da həddindən artıq məhsuldar idi. Bu müasir ingilis dilinin analitik quruluşa malik olması və dilin nitq hissələrinin paradiqmalarının sadəliyi ilə izah olunurdu. Çoxlu sayda bir hecalı sözlərin konversiya olunması isə ingilis dilində bir faktor idi [7, s. 24].

İsim və feil düzəldən vasitə kimi konversiya ingilis dilində XII əsrdən yaranmağa başlayıb. Konversiya orta əsrlərdə ingilis dilində flektiv sistemin dağılması nəticəsində işlənməyə başlayıb. Əvvəllər səs strukturuna görə fərqlənən, mənaca yaxın isim və feil cütləri, orta əsrlərdə quruluşca eyniləşdi. Bu, feilin başlanğıc forması olan məsdər şəkilçisi itiriləndən sonra mümkün oldu. Məhz məsdər şəkilçisinin itirilməsi nəticəsində eyni köklü isim və feillərin for-

malarının üst-üstə düşməsi sözdüzəldici model kimi konversiyanın inkişafına təsir etdi. Sonralar analoji olaraq isimlərdən feil və əksinə feillərdən isimlər yaradılmağa başladı.

Konversiya vasitəsilə isimlərdən feil düzəldilməsinə aşağıdakı, isimləri nümunə göstərmək olar. Məs: ape (n) – meymun – to ape – meymunluq etmək; butcher (n) – qəssab – to butcher – qəssablıq etmək; doctor (n) – həkim – to doctor – həkimlik etmək; star (n) – ulduz – to star – ulduzluq etmək, ulduz olmaq (səhnədə).

Mürəkkəb söz köklərindən – mürəkkəb isimlərdən də – mürəkkəb feil düzəltmək mümkündür. Məs: weekend (n) – to weekend (v); buttonhole (n) – to buttonhole (v), və s.

a) Konversiya vasitəsilə isimdən feil düzəldilən feillərdə isim əsasən anlayışın (işin) planlaşdırılmasını, feil isə işin icrasının yerinə yetirilməsinin bildirir. Məs: programme (n) "proqram" – to programme (v) "proqramlaşdırmaq"; plan (n) "plan" – to plan (v) – "planlaşdırmaq" və s.

b) İsim əşya bildirir (göstərir), feil isə ismin ifadə etdiyi mənanın icrasını bildirir. Məs: roof (n) "çardaq" – to roof (v) "çardaqla örtmək, çardaq vurmaq" və s. [1, s. 19].

Konversiya vasitəsilə feillərdən isimlərin düzəldilməsi: to jump (v) – jump (n); to move (v) – move (n); to help (v) – help (n); to switch (v) – switch (n); to walk (v) – walk (n); to fall (v) – fall (n); to contest (v) – contest (n); to smoke (v) – smoke (n); to peel (v) – peel (n) və s.

Fleksiyanın itirilməsi nəticəsində ingilis dilində yaranan bir sıra isim və feillərin omonimliyi konversiyanın yeni sözdüzəldici üsul kimi yaradılmasına kömək edən şərtlərdən biri idi. Müxtəlif sözlərin formaca eyni olması analoji olaraq yeni sözlərin yaradılmasını mümkün etdi. Anologiya ingilis sözdüzəltməsinin xarakterik cəhəti idi.

Orta ingilis dili dövründə, təxminən XV əsrə qədər, feillərin isim və sifətlərdən düzəldilməsi nisbətən azaldı. Bu birinci növbədə fransız dilindən bir çox feil və isimlərin alınması ilə izah olunurdu. Joye "sevinc" və joen "sevinmək" tipli söz cütləri ingilis dilinə keçərək dildə artıq mövcud olan omonim söz cütləri ilə analoji olaraq uyğunlaşdılar. Belə alınma qrammatik omonimlər də konversiyanın inkişafına şərait yaradırdı, -en (-n) şəkilçisi məsdər düzəldən morfoloji vasitə kimi çıxış edirdi. Bu zaman kökdəki sait dəyişməz qalırdı və məsdər şəkilçisi kimi *-en* çox asanlıqla atılırdı. Fleksiyaların itirilməsi prosesində XIV - XV əsrlərdə məsdər şəkilçisinin yoxa çıxması ilə isim və sifətlərdən feilin, feillərdən isə isimlərin düzəldilməsi davam etsə də, bu dövrdə morfoloji əlamətlər istifadə olunmurdu. Əlavə etmək lazımdır ki, o dövrdə isim düzəldən şəkilçilərin az olması da konversiyanın inkişafına şərait yaradırdı. Konversiyanın əlamətdar xüsusiyyəti kimi sözdüzəldici əsasla düzəltmə sözün omonim olmasını göstərmək olar. Bundan başqa hər iki söz semantik cəhətdən əlaqəli olur.

Bir semantik mənanın müxtəlif nitq hissələrinə aid olan neçə sözün eyni vaxtda konversiyaya uğraması məsələsi həll olunmamış problemlərdən biri hesab olunur. Qeyd etmək lazımdır ki, konversiya ilə düzələn eyni semantik mənaya aid nitq hissəsini müəyyən edərkən konversiyanın təkrarlanması, rekonversiya, omonim sözlərin yaranma tarixi kimi dil hadisələrini nəzərə almaq lazımdır.

Analiz üçün konversiya ilə düzəldilmiş sayılan bir neçə omonim sözləri nümunə göstərmək olar. Məsələn: down n_1, n_2, adj, adv, prep, v. Oksford lüğətinə görə down n_1 isminin "qum təpəsi, meşəsiz təpə" mənası başlanğıc hesab edilir. Bu isim sözönü ilə işlənərək down zərfinin yaradılmasına gətirib çıxartdı: adune, adown < of dune.

Feildən yaranmış isimlərlə atributiv işlənən down zərfi, sifət yaradıb. Məsələn down leap < to leap down, downfall < to fall down. Bundan əlavə down zərfi feilin yaradılmasında da iştirak edirdi. Belə ki, down zərfi işləndiyi hərəki feillərin, come, go, sit, knell, lie və s., ellipsi nəticəsində "enmək, aşağı düşmək, təyyarə vurmaq və enməyə məcbur etmək" mənasında işlənən to down feilini yaratdı. To down feili konverisya yolu ilə semantik cəhətdən onunla əlaqələnən "eniş, düşmə" mənasında $down_2$ ismini yaratdı.

İngilis dilində çoxlu miqdarda feildən düzəldilən isimlərə rast gəlinir ki, onlar qoşma vasitəsilə düzəldilirlər. Məs: take off (v) – take off (n). Valet (qumar kağızlarındakı şəkillər-

dən biri); fall out (v) – fallout (n) (radio aktiv maddələrin (çöküntülərin) düşməsi; Walk out (v) – Walk out (n) (tətil, etiraz); Strow away (v) – Strow away (n) (pulsuz və ya qeyri qanuni yolla getmək məqsədilə təyyarənin və ya gəminin bortunda gizlənən adam).

İngilis dilində qoşma ilə işlədilən çoxlu sayda feillər var ki, həmin qoşmalı feillərin hamısının konversiyası isimlərdən düzəldilirlər. Belə ki, "look" feilindən aşağıdakı düzəltmə feillər əmələ gəlmişdir: look about, look after, look at, lookdown, look for, look forward, look in, look into, look on, look out, look over, look round, look through, look toward, look upon. Qeyd olunan düzəltmə feillərdən yalnız look in (cəld baxış, nəzər) və look out (sayıqlıq, ayıqlıq) isim düzəldir [3, s. 137].

Yuxarıdakılan nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, konversiya eyni zamanda yalnız iki nitq hissəsinə aid edilə bilər. Bu iki nitq hissəsi semantik cəhətdən bir-birinə yaxın olmalıdır. Bundan əlavə belə nəticəyə gəlmək olar ki, sifət, zərf sözönü konversiya ilə yaradılmır. Onların düzəldilməsində ellips, adyektivləşmə, substantivləşmə, adverbializasiya kimi digər sözdüzəltmə vasitələrdən istifadə olunur. Konversiya ilə yaradılmış isimlər mənaca uyğun gəldiyi feildən düzəldilir. Digər nitq hissələrindən düzəldilmiş isimlərdə, əsasən substantivləşmədən istifadə edilir.

Qeyd etmək lazımdır ki, konversiya vasitəsilə təkcə isimdən feil, fieldən isim deyil, digər nitq hissələri də, məsələn sifətdən feil (həmçinin zərf, nida – feil), sifətdən – isim, isimdən – isim, isimdən – sifət, zərfdən – isim, (həmçinin nida – isim, zərf – sifət və s.) düzəldilir. Məs: empty adj – to empty (v); down adv – to down; boo int – to boo (v); seldom adv.-a seldom please adj; above adv, – the above remarked adj; in, out adv, -ins, outs (n) (He knows all the ins and outs of the town) və s. [6, s. 41-43].

Digər söz düzəldici vasitələrdə olduğu kimi konversiyada da sözlər bir məna ilə yaradılır. Lakin sonralar onların əksəriyyəti çoxmənalı olur. Konversiya düzəltmələrdə polisemiyanın necə yaranması məsələsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu məsələnin həlli konversiyanın sözdüzəltmə vasitəsi kimi məhsuldarlıq dərəcəsini müəyyən etməyə kömək edir. Tədqiqatlar nəticəsində aşağıdakı qanunauyğunluqlar əldə edildi:

a) Düzəltmə sözlərin çoxmənalılığı konversiyanın dəfələrlə işlənməsi nəticəsində mümkün olmuşdur. Sözdüzəldici əsasın neçə mənası varsa, bir o qədər də əsas konversiyaya uğraya bilər. Məsələn: share (n)- to share (v) hissə; 1. bölmək, hissələrə ayırmaq iştirak; 2. İştirak etmək; pay, aksiya 3. payçı olmaq, şərik olmaq.

Beləliklə, konversiya vasitəsilə yalnız yeni sözlər deyil, həm də əvvəllər konversiya olunmuş sözlərin yeni mənaları da düzəldilə bilər, yəni yalnız söz yox, həm də onun mənaları da konversiya oluna bilər:

b) Konversiya edilmiş sözlərin polisemiyası semantik cəhətdən bir-birilə bağlı olan müxtəlif nitq hissələrinin konversiyası nəticəsində ola bilər.

Məsələn: konversiya ilə sifət kökündən müəyyən mənaya malik olan feil yaradılır. Eyni sifətdən substantivləşmə nəticəsində bir və ya bir neçə mənalı isim yaradılır. Bu isimdən sonralar konversiya vasitəsilə feil düzəldilir.

Beləliklə, eyni əsaslı feilin mənaları sifətdən və isimdən yaranmış feillərin mənaları hesabına çoxalır. Məsələn:

Parallel (adj) ----------> parallel (n)
1. parallel; 1. parallel
2. oxşar, analoji 2. oxşarlıq, uyğunluq, analogiya
parallel (adj) ----------> parallel (v)
1. parallel 1. parallel olmaq, parallel keçmək
2. parallel (n) ----------> parallel (v)
1. parallel 1. paralle, parallel aparmaq uyğunluq, analogiya müqayisə etmək
2. parallel qoşulma parallel qoşmaq

Bütün bunlar göstərir ki, müasir ingilis dilində konversiya çoxmənalı sözlərin yaradılmasında mühüm rol oynayır və hələ də məhsuldar sözdüzəldici üsul kimi işlədilir.

İngilis dilində düzəltmə sözlərin semantik strukturunun inkişafı metonimiya və metaforizasiya hesabına baş verir. Konversion düzəltmə sözlərin semantik stukturunda müəyyən qanunauyğunluqlar izlənir: onların mənaları bir çox halda müstəqil inkişafa malik olmurlar. Əgər düzəltmə sözlər məcazi mənada işlənə bilirsə, bu sözdüzəldici əsasın mənasından asılı olur. Əksərən düzəltmə sözdə sözdüzəldici əsasın semantik strukturunda olmayan mənaya rast gəlmək mümkün deyil. Lakin müstəqil olaraq yeni məna yaradan bir neçə düzəltmə sözə də rast gəlmək mümkündür. Məsələn, to floor konversion düzəltmə feilin semantik strukturundan görünür ki, o danışıq zamanı bir neçə məcazi mənada işlədilir.

1. to confound, nonplus, flabbergast; 2. (məktəb jarqonu) to be or get flooder = to get confused, to be at a lose, fail. Floor ismində bu məna yoxdur. Çox güman ki, bu mənalar to floor feilin "to bring to the floor or ground" və ya "to be floored=to have a fall" mənalarının məcazi işlənməsi nəticəsində yaradılıb.

Tədqiqatlara əsasən semantik strukturu çoxdan yaradılmış düzəltmə sözlərin mənaları metonimiya və metaforizasiya hesabına inkişaf edə bilir. Məsələn: to floor feili 1420-ci ildə, yeni konversiyanın bir elm kimi obyektinə çevrilib və hələ də tədqiq edilir.

İngilis dilində konversion düzəltmələrin semantik strukturunun inkişafının müxtəlif yolları mövzuddur. Təkrarlanan konversiya və müxtəlif nitq hissələrinin konversiyası ilə yanaşı düzəltmə sözlərin mənalarının artması ***rekonversiya*** vasitəsilə də baş verir.

Rekonversiya dedikdə, elə bir dil hadisəsi nəzərdə tutulur ki, bu zaman düzəltmə sözün mənalarından biri konversiya yolu ilə sözdüzəldici əsasa yeni məna yaratmaq üçün mənbə olur. Məsələn: "kabel" mənalı "cable" ismi "teleqrafla xəbər göndərmək" mənalı "to cable" feilindən konversiya olmuşdur. Feilin bu mənası sonrakı dövrdə rekonversiya olaraq "teleqram" mənalı isim yaradıb. Beləliklə, isim əsasının semantik strukturu rekonversiya vasitəsilə genişlənmişdir.

Lakin qeyd etmək lazımdır ki, konversiya və rekonversiya arasında müəyyən fərq mövcuddur. Konversiya zamanı sözdüzəldici əsasın mənasından bir-birinə uyğun gələn müəyyən mənalı yeni söz yaradılır.

Rekonversiya ola bilən konversion düzəltmələrin mənaları iki cür olur. Birincisi, düzəltmə sözün semantik strukturunda metaforizasiya, metonimiya, mənanın daralması və ya genişlənməsi hesabına yaranan məna ola bilər. İkincisi, konversiya ilə düzəldilmiş feilin mənasından biri rekonversiya olaraq feil çalarlı hərəkətin prosesi, aktı və s. mənasında ismin semantik strukturuna daxil olur.

Rekonversiyaya yalnız konversiya yolu ilə isimdən yaranmış feillərin, ya da feildən düzəldilmiş isimlərin mənaları uğraya bilər. Sifət, zərf və digər nitq hissələrindən yaradılmış feillər rekonversiya ola bilmirlər.

Rekonversiya təkrar konversiya ilə yanaşı sözün polisemiyasını inkişaf etdirən bir vasitədir. Rekonversiya zamanı yalnız sözdüzəldici əsas öz semantik strukturunu genişləndirə bilər.

Tədqiqat nəticəsi. Düzəltmə sözlərin yaranmasında konversiyanın inkişafı prosesi nəzərdən keçirilərək aydın olur ki, dilin qrammatik quruluşu xaricində sözyaradıcılığı prossesinin heç bir ünsürü əmələ gəlmir.

Məqalədə yazılanları nəzərə alsaq belə bir nəticəyə gələ bilərik ki, müasir ingilis dilində konversiya, təkrar konversiya və rekonversiya affiksasiya sözdüzəltmə üsulu ilə yanaşı fəaliyyət göstərərək, düzəltmə sözlərin, semantik strukturunda dəyişikliklər yaradır.

Məqalənin elmi yeniliyi. Azərbaycan dilində və ingilis dilində olan tədqiqat işlərinə nəzər saldıqda belə məlum olur ki, konversiyanın yaranması ilə bağlı tədqiqat işləri çox az işlənmişdir. Bu barədə təhlillər və araşdırmalar çox az olduğundan konversiya üsullarının araşdırılması və tədqiqata cəlb edilməsi, yeni söz düzəltmə üsullarının araşdırılması tədqiqat işinin yeniliyi hesab oluna bilər.

Məqalənin tətbiqi əhəmiyyəti. Dilçiliyin öyrənilməsində konversiyanın yaranma yollarını və Azərbaycan dilində onların öyrənilməsi, araşdırılması, onların yaratdıqları yeni mənaların müəyyənləşdirilməsidir.

Tədqiqat işinin səmərəsi bundan ibarətdir ki, tədqiqat işindən müvafiq fakültələrdə leksikologiya və üslubiyyat fənnlərinin tədrisində o cümlədən tərcümələrdə və digər tədqiqat işlərinin aparılmasında istifadə edilə bilər.

Ədəbiyyat

1. Каращук, П.М. Словообразование английского языка / П.М.Каращук, − М., − 1977. − 302 с.
2. Каращук, П.М. Аффиксальное словообразование на английском языке / П.М.Каращук, − М., − 1965, − 176 с.
3. Мешков, О.Д. Словообразование современного английского языка / О.Д.Мешков, − М., − 1976, − 445 с.
4. İngilis dilində feil düzəldən inkar prefikslərin semantik xüsusiyyətləri // −Bakı: Filologiya məsələləri, − 2011. №4. − s. 15-21.
5. Taghıyeva, S.E. İngilis dilində morfoloji yolla düzəldilən inkar prefikslərin semantik-struktur xüsusiyyətləri // −Bakı: Filologiya məsələləri, − 2011. №4. − s. 33-40.
6. Hajiyeva, A.H. Contrastive lexicology / A.H.Hajiyeva, E.B.Nəcəfli, − Baku, − 2010. – p. 211.
7. Najafli, E.B., English lexicology / E.B.Najafli, S.E.Taghiyeva. − Baku, − 2018, − p.323.

S.E.Taghiyeva

The Role of Conversion in the Formation of Word-Building

Summary

The article is devoted to the role of conversion in the formation of word-building. It is clear that mainly verbs are converted into nouns and nouns are converted into verbs.

From the analysis, it became clear that not only verbs and nouns are converted but the other parts of speeches (adjectives and verbs etc.) are also converted into nouns and verbs in this way they enriched the word-building in English.

Key words: *Word formation, conversion, polysemy, substantivation, semantic structure, flexion, affixation*

С.Е.Тагиева

Роль конверсии в образовании составных слов

Резюме

Статья посвящена роли конверсии в формировании составных слов. Во время конверсии в основном глагол конвертируется в существительное и существительное конвертируется в глагол.

Анализ показывает, что, конвертируются не только существительные и глагол но и другие части речи (прилагательные, обстоятельства и другие) тоже конвертируется на другие части речи и обогащает словообразование в английском языке.

Ключевые слова: *словообразование, конверция, полисемия, субстантивация, семантическая структура, флексия, аффиксасия*

Rəyçi: dos. M.M.Təhməzova

Redaksiyaya daxil olub: 12.04.2024